# Azad Azərbaycan

20 aprel 2023-cü il №09 (3739)





*Lilpar CƏMŞİDQIZI*

## QƏZƏLLƏR

Ey dil, hər aşiqin yenə dərmanı sevgidir,
Hicran görənlərin qəmi, zindanı sevgidir.

Leyla çəkib nə qədri əziyyət bu sevgidən,
Səhra gəzənlərin demə loğmanı sevgidir.

Dəryadə çoxdu canlı, düşünmür bu aləmi,
Ancaq cahanda aşiqin ümmanı sevgidir.

Vardır nə qədri sevgi- məhəbbətlə oynayan,
Həm güldürən, həm öldürən insanı sevgidir.

Ya Rəb, bağışla Sən məni aləmdə bircə yol,
Düz yolda saxlayan həmi şeytanı, sevgidir.

Həsrət qəmin verəndə nədən bilmədin, Xuda?
Aləmdə hər bir aşiqə cananı sevgidir.

Sən tək mənim bu könlümə kimdir de, yol tapan?
Lilparı şair eylədin, ünvanı sevgidir.

***

Bəxti yazan, neyləyim, görmədi hərdən məni,
Bir quru yarpaq kimi saldı nəzərdən məni.

Eylədiyim hər nə var, sirri - Xudadən gəlir,
Kaş, soruşaydın, fələk, bircə nəfərdən məni.

Əllərimi açmışam, mən dilənim bəxtimi,
Sanki əsən bir külək qovdu şəhərdən məni.

Dalğaların qoynuna baş vuracam bir səhər,
Kimsə gəlib sormasın burda Xəzərdən məni.

Qüssə çöküb üstümə, gör necə mən qəmliyəm,
Ver sıxılan könlümü, al bu kədərdən məni.

Fikrü xəyalım gedir görmədiyim yerlərə,
Leyli təkin çöllərə saldı səhərdən məni.

Sözlərim ən saf-çürük eyləyirəm hər zaman,
Söylədiyim kəlmələr etdi nələrdən məni.

Tanrı verib ömrümü, çün alacaqdır yenə,
Qoyma gedim, ey fələk, saxla səfərdən məni.

Təb'I veribdir Xuda, yazmağı Lilpar bilir,
Kim tanımır, qoy yazım, görsün əsərdən məni.

***

Bivəfayə yalvardım, yol gələndə hicranım.
Bir vərəqdə səhv olmuş, yar əlində ünvanım.

Dərd əlində can verdim, gözlərimdə bir həsrət,
Gülməyibdi rüxsarım, qəm çəkəndə cananım,

Yar vurubdu köksümdən, hər atanda müjganın,
Oxlayanda sinəmdən, yar ələndi bir canım.

Xanə tikdim, Allahım, pəncərəmdə gül bitsin,
Nalə etsə bülbüllər, qürrələnməz eyvanım.

Ömrü aldım illərdən, dən səpəndə tellərdən,
Mənzilimdə yatmışdım, yol gedəndə karvanım.

Yar dolandı bəxtimdən, gəldi keçdi qəlbimdən,
Gözlərimdə nur olmuş, mən görəndə Sultanım,

Bir qələmdi bir dəftər, əllərində Lilparın,
Bir gəzəlxan ömründən pay veribdi Rəhmanım.

***

Sevinməz bu könlüm, o hicran gələrsə,
Günüm qarə olmaz, bu bəxtim gülərsə.

Yanan könlümün görmədin yox əlacı?
Susar dərdi qəlbimdə, bir gün ölərsə.

Deyirlər ki, insaf da olmaz gözəldə,
Verərsənmi bir canı, canan dilərsə?

Bəşərdir əziyyət çəkən tək cahanda,
Xudadən gələr sehri bir gün bilərsə.

Mənim xəstə könlüm, bir axşam da gözlə,
Çoxalmaz bu həsrət, o yarım bölərsə.

Çağırsam, səsim tez çatarmış o yarə,
Tökülməz gözümdən axan yaş, silərsə.

Bu Lilpar nə görmüşdü, ondan da yazdı,
Yazar çox qəzəllər, bir az dincələrsə.

***

Həsrətin yaman öldürür məni,
Vermisən nədən böylə qüssəni?

Köynəyin solub, köhnəlib, gözəl,
Yar gəlib görər, açma düyməni.

Oynayan bulud Göydə çarpışar,
Örpəyin salar zirvənin çəni.

Qartalın gözün bağlama zduman,
Qıy çəkər gələr, görsə zirvəni.

Bülbülün qəmin xar bilərsəgər,
Tez gəlib sarar nazlı qönçəni.

Gündoğan zaman parlayar Günəş,
Çöldə rəqs edərsün bülündəni.

Gül-çiçək təkin ömrü tez solar,
Lilparın əgər varsa düşməni.

***

Neyçün, eydil, bu həsrətdən ölürsən?
Yol çəkəndən səmər yox dur bilirsən.

İstəmişdin gözümdən yaş tökülsün,
Ölməmişdən məzarımdan gəlirsən.

Çıxmayırsan yuvandan sən haçandır,
Gözləməkdən yoruldun, dincəlirsən?

Vurnuxursan, yerimdən tərpənəndə,
Sol tərəfdən yanır köksüm, dəlirsən.

Ayrılıqdan haçan çəksəm kədər- qəm,
Ağladırsan, fələk, gendən gülürsən.

Mənnə etdim, sənin dərdin nədir de?
Mənli mənsiz nəvermişdin bölürsən.

Sözlərindən xeyir görmür bu Lilpar,
Gözlərindən daşır qəmlər silirsən?

***

Könül çıxardı bir gün, dar olmasaydı xanə,
Ağıllı bir sevəndə, verərmi qüssə canə.

Dedim məhəbbətinlə gəl oynama əzəldən,
Könül veribsən artıq, o qaşları kəmanə.

Nə Leyli var, nə Məcnun yaman dəyişdi dövran,
O çöllərin tozunda, de kim düşüb dumanə?

Sevib-sevəndə insan, qanadlanır səmadə,
"Məhəbbətin" dəmindən, olur könül miyanə.

Sevənlərin çoxunda, bitib-gedib sədaqət,
Yalanla doğdu insan, nə eyləsin zəmanə.

Bu bəhridən çıxanlar, boğulmayır cahanda,
Ömür sürən zamanda, gəlir qayıq limanə.

Qızılgün yanında o xəstə bülbül olsa,
Bulaq başında hər gün ətir səpərdinanə.

Ötüb-keçən məhəbbət, qayıtmayan qatardı,
Kədərlə yol gedənlər, edir bunu bəhanə.

Nələr alıbdı səndən, nələr veribdir aləm ,
Susur könüldə Lilpar, dolanda sevgi qanə.

***

Düşərdimi bir eşqə, könül vurulmasaydı?
Axardımı damardan o qan durulmasaydı?

Nə sevgi vardı indi, nə ülvi bir məhəbbət,
Nə Adəm ilə Həvva, cahan qurulmasaydı.

Cəhənnəm ilə Cənnət, dolub daşardı hər gün,
Bilərdi səhvin insan, günah sorulmasaydı?

Fəğan edərdi bülbül, qızıl gülün dəmindən?
Açanda gül budaqdan o xar sarılmasaydı.

Cəfa çəkən bir aşiq, dözərdi min bəlayə,
Külək gələrdi hardan, o cam qırılmasaydı?

Tutub bərabər aşiq, içəndə qəm şərabın,
O fərqi bilməz idi, ürək yarılmasaydı.

Yazardı burda Lilpar, tapıb qələm və dəftər,
Cilid-cilid kitablar, əgər yorulmasaydı.

***

Xəyali-yarə yetsəm, görüşməyim gümandı,
Gəlibdi həsrət artıq, yolum-izim dumandı.

Vüsalına ümid yox, qayıtmayır ki, zalım,
Zəhər tökür dilindən, o bəxtəvər yamandı.

Vurulmuşam o bilmir, bir od yanır içimdə,
Ki, oxlayan yaxamdan, o qaşları kamandı.

Gözümdə sellər oynar, tutanda yar əlimdən,
Birazca diqqət etdim ki, tutduğum samandı.

Bu sevgidən səməryox, yalançıdır məhəbbət,
Gedən bu bəxti bizdən, gətirməyən zamandı.

Mənim bu qanlı könlüm sıxışdırır yaxamda,
Döyəcləyəndə köksüm, deyim ki, qəhrəmandı.

Nə arzudur, nə istək, bilinməyir xəyalın,
O gözlərində, Lilpar, oxunmamış romandı.